**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏSİRİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Nurəddin Səftər oğlu Mehdiyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Elvin Bəhruz oğlu Talışinski**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Rəşad Rəhim oğlu Məhərrəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: ______________

Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ______________

siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ______________

siyasi elmlər doktoru, professor
**Hikmət Baba oğlu Məmmədov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal informasiya cəmiyyəti konsepsiyası çağdaş dövrdə nəzəri və praktiki baxımdan aktuallığını qoruyur. İnternet, mobil rabitə vasitələri, sosial media platformaları və bulud texnologiyalarının geniş tətbiqi bu cəmiyyətin reallıq statusunu möhkəmləndirir. Konsepsiyanın əsas nəzəri sütunlarından biri ondan ibarətdir ki, İKT vasitəsilə informasiya bərabərsizliyinin azaldılması və dövlətlər, regionlar və sosial qruplar arasında mövcud olan rəqəmsal uçurumun aradan qaldırılması mümkün ola bilər. Bununla yanaşı, qlobal informasiya cəmiyyətinin inkişafı informasiya təhlükəsizliyi, şəxsi məlumatların qorunması və texnologiyadan istifadənin etik prinsiplərinin təmin olunması kimi məsələlərin prioritetliyini ön plana çəkir.

Eyni zamanda, müasir beynəlxalq münasibətlərdə İKT-nin təsiri diplomatiyanın ən aktual mövzularından birinə çevrilmişdir. İKT vasitəsilə dövlətlər artıq öz xarici siyasət mövqelərini qlobal auditoriyaya daha sürətli çatdırır, diplomatik dialoq və danışıqlar rəqəmsal müstəviyə keçir və bu da ənənəvi diplomatiyanın sərhədlərini genişləndirir. Eyni zamanda, rəqəmsal informasiya axını diplomatiyada şəffaflığı və ictimai diplomatiyanın güclənməsini təmin edərək beynəlxalq münasibətlərdə yeni bir kommunikasiya paradiqması formalaşdırır.

İnformasiya və kommunikasiya texnologiyalarının beynəlxalq münasibətlərə təsiri son illərdə kəskin şəkildə artmış və bu texnoloji amil dövlətlərarası qarşılıqlı əlaqələrin, rəqabətin və münaqişələrin strukturunu əhəmiyyətli dərəcədə dəyişdirmişdir. İKT artıq sadəcə ünsiyyət vasitəsi deyil, həm də geosiyasi güc alətinə çevrilmişdir. Dövlətlər kiberməkanı strateji məkan kimi qəbul edir, burada informasiya sistemlərinə müdaxilə, kiberkəşfiyyat fəaliyyəti, seçki proseslərinə təsir göstərmə və kritik infrastrukturun iflic edilməsi kimi metodlardan istifadə etməklə rəqiblərinə qarşı mövqe üstünlüyü əldə etməyə çalışırlar. Eyni zamanda, “rəngli inqilabların” baş verdiyi dünyada sosial media platformaları, bot şəbəkələri və saxta xəbərlər vasitəsilə aparılan dezinformasiya kampaniyaları beynəlxalq münaqişələrdə ictimai rəyi manipulyasiya etmək üçün geniş istifadə olunur. Belə bir mühitdə kibertəhlükəsizlik siyasəti və informasiya

müharibələrinə qarşı strateji hazırlıq dövlətlərin xarici siyasət prioritetləri sırasına daxil olmuşdur və bu da İKT-nin beynəlxalq münasibətlərdə həm risk, həm də güc elementi kimi rolunu təsdiqləyir.

Başqa sözlə, İKT-nin inkişafı informasiya müharibələrinin intensivləşməsinə və informasiya təhlükəsizliyi məsələlərinin aktuallaşmasına səbəb olmuşdur. Dövlətlər rəqəmsal platformalarda informasiya manipulyasiyası və dezinformasiya vasitəsilə strateji üstünlüklər qazanmağa çalışır, bu isə diplomatiyanın yeni mübarizə meydanına çevrilməsinə gətirib çıxarır. Nəticədə, informasiya təhlükəsizliyi həm milli, həm də qlobal diplomatik gündəlikdə prioritet istiqamətə çevrilərək beynəlxalq münasibətlərin sabitliyinə birbaşa təsir göstərir. İKT-nin yaratdığı çağırışlar göstərir ki, informasiya təhlükəsizliyi yalnız texniki məsələ deyil, milli təhlükəsizliyin qorunması üçün siyasi və hüquqi mexanizmlərlə dəstəklənməli olan bir sahədir.

Öz növbəsində, Azərbaycanın informasiya təhlükəsizliyi sahəsində üzləşdiyi təhdidlər də getdikcə daha mürəkkəb və çoxşaxəli xarakter alır. Xarici dövlətlər və qeyri-dövlət aktorları, xüsusilə Ermənistan mənşəli qurumlar, kibercasusluq vasitəsilə Azərbaycanın siyasi, iqtisadi və hərbi məlumatlarına çıxış əldə etməyə çalışır, bu isə milli təhlükəsizlik üçün ciddi risk yaradır. Eyni zamanda, kiberterror aktları vasitəsilə kritik infrastrukturun iflic edilməsi və ictimai sabitliyin pozulması məqsədilə informasiya texnologiyalarından istifadə olunur. Ermənistan tərəfindən yönəldilən informasiya müharibəsinin əsas istiqamətləri isə dezinformasiyanın, saxta xəbərlərin və koordinasiyalı sosial media kampaniyalarının yayılması ilə ictimai rəyə və beynəlxalq imicə təsir göstərməkdir. Bu səbəbdən informasiya təhlükəsizliyi və müasir informasiya müharibəsi üsullarının elmi cəhətdən araşdırılması Azərbaycanın milli təhlükəsizlik strategiyasının mühüm istiqamətidir.

Dövlətimizin xarici siyasəti göstərir ki, rəqəmsallaşma Azərbaycan Respublikasının xarici siyasətində kommunikasiya imkanlarını genişləndirmiş, ölkənin beynəlxalq imicinin formalaşdırılmasında və qlobal auditoriyaya çıxışında mühüm alətə çevrilmişdir. Bu proses vasitəsilə Azərbaycan diplomatik

təşəbbüslərini daha effektiv şəkildə formalaşdırır, regional və beynəlxalq əməkdaşlıq formatlarında mövqelərini gücləndirir. Eyni zamanda, rəqəmsal müstəvidə artan fəaliyyət informasiya təhlükəsizliyi risklərini artıraraq xarici siyasətdə yeni yanaşmanın zəruriliyini ön plana çıxarır.

Bu baxımdan, 2020-ci ildə baş vermiş ikinci Qarabağ müharibəsi informasiya texnologiyalarının müasir münaqişələrdəki rolunu açıq şəkildə göstərdi. Ermənistan və tərəfdarları beynəlxalq ictimai rəyə təsir etmək üçün saxta xəbərlər yaymaqla Azərbaycanın haqlı mübarizəsini mənfi göstərməyə çalışdılar. Azərbaycan isə bu cəhdlərə qarşı informasiya mübarizəsi apardı və qarşı tərəfin yalan məlumatlar yaydığını sübut etdi.

Beləliklə, yuxarıdakılar əsasında, İKT-nin beynəlxalq münasibətlərə təsirinin aktuallığını aşağıdakı dörd əsas aspekt üzrə ifadə etmək mümkündür:

– İKT artıq yalnız texnoloji inkişaf deyil, dövlətlərin geosiyasi güc göstəricisinə çevrilmişdir. İnformasiya sistemləri üzərində nəzarət, kiberkəşfiyyat imkanları və rəqəmsal diplomatiya vasitələri dövlətlərin beynəlxalq münasibətlərdə təsir gücünü artırmaqda və "rəngli inqilabların" idarə olunmasında əsas alət kimi çıxış edir. Bu isə ənənəvi güc anlayışını dəyişdirərək, rəqəmsal gücün diplomatik və hərbi güclə bərabər səviyyəyə yüksəlməsinə səbəb olur.

– İKT diplomatiyanın çevikliyini və manevr qabiliyyətini artıraraq dövlətlərin beynəlxalq münasibətlərdə daha geniş təsir imkanları qazanmasına şərait yaradır. Bu isə öz növbəsində rəqəmsal diplomatiyanın formalaşmasına və qlobal siyasi proseslərdə yeni ünsiyyət mexanizmlərinin meydana çıxmasına səbəb olur.

– Rəqəmsallaşma yeni bir faktor olaraq, Azərbaycanın xarici siyasət strategiyalarında informasiya axınının idarə olunmasını və beynəlxalq müstəvidə operativ mövqe nümayiş etdirməsini təmin edir. Bununla yanaşı, artan rəqəmsal fəaliyyət informasiya təhlükəsizliyi çağırışlarını gücləndirərək dövlətin milli maraqlarını qorumaq üçün yeni yanaşmalar tələb edir.

– Kibercasusluq, dezinformasiya kampaniyaları və informasiya müharibələri dövlətlərin informasiya təhlükəsizliyini

ciddi təhdid edir. Xüsusilə Azərbaycan kimi münaqişə şəraitində olan ölkələr üçün informasiya texnologiyalarının istifadəsi həm strateji risklər yaradır, həm də qarşı tədbirlərin zəruriliyini artırır. Bu isə İKT-nin təkcə ünsiyyət deyil, eyni zamanda təhlükəsizlik və diplomatik strategiya məsələlərində də aktuallığını ön plana çıxarır.

Azərbaycanda mövzu ilə bağlı elmi tədqiqat işlərinin aparılması müstəqillik illərindən başlanır. Bu illər ərzində müəyyən tədqiqatlar aparılsa da, bu problem Azərbaycanda sistemli bir tədqiqat şəklində tədqiq olunmamışdır. Bununla belə, H.Babaoğlunun əsərləri mövzunun işlənmə dərəcəsində xüsusi yer tutur; müəllif həm qlobal səviyyədə beynəlxalq münasibətlərin və dünya siyasətinin nəzəri çərçivəsini sistemləşdirən fundamental tədqiqat aparmış, həm də Azərbaycanın müasir beynəlxalq siyasətdəki mövqeyini ayrıca monoqrafik tədqiqatla işıqlandırmış, bununla yanaşı, dezinformasiyanın siyasi diplomatiyanın ayrılmaz parçasına çevrildiyini mediada vurğulayaraq məsələnin həm nəzəri, həm də praktiki aspektlərinə toxunmuşdur[1].

E.Əhmədov isə öz növbəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünü çoxcildli tədqiqat əsərlərində sənədlər, materiallar, etnik təmizləmə, soyqırım, terror və işğal faktları, həmçinin beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti kontekstində hərtərəfli araşdırmış, bununla yanaşı, Heydər Əliyevin milli maraqlara əsaslanan dövlət siyasətini ayrıca monoqrafiyada işıqlandırmış və Vətən müharibəsi tarixinə həsr olunmuş külliyyatda Prezident İlham Əliyevin qələbə strategiyasını diplomatik fəaliyyət aspektində təhlil edərək mövzunun həm tarixi, həm siyasi, həm də diplomatik aspektlərinə əhatəli töhfə vermişdir[2].

---

[1] Məmmədov, H. (Babaoğlu). Dünya siyasəti və beynəlxalq münasibətlər / H.Məmmədov (Babaoğlu). – Bakı: Bakı Universiteti, 2014. – 676 s.; Məmmədov, H. (Babaoğlu). Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu / H.Məmmədov (Babaoğlu). – Bakı: Aypara-3, 2009. – 328 s.; Məmmədov, H. (Babaoğlu). Dezinformasiya siyasi diplomatiyanın bir parçasına çevrilib // Şərq qəzeti. – 2024, 22 iyul; Məmmədov, H. (Babaoğlu). Xarici siyasət / H.Məmmədov (Babaoğlu). – Bakı: Bakı Universiteti, 2019. – 324 s.

[2] Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab / E.Əhmədov. – Bakı: Letterpress, 2015. – 324 s.; Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab /

E.Nəsirov 11 sentyabr hadisələrindən sonrakı dövrdə ABŞ-ın qlobal siyasətdə oynadığı rolu geniş şəkildə təhlil etmiş, həmçinin Amerika Birləşmiş Ştatlarının antiterror doktrinasını və onun tətbiq mexanizmlərini ayrıca tədqiqat əsərində araşdıraraq beynəlxalq münasibətlər sistemində təhlükəsizlik, terrorizmə qarşı mübarizə və geosiyasi strategiyaların nəzəri-praktik əsaslarını üzə çıxarmışdır[3].

H. Hüseynova və T. Tağıyeva beynəlxalq münasibətlərdə lobbizmin nəzəri və praktik əsaslarını araşdıraraq mövzunun diplomatik müstəvidə aktuallığını göstərmiş, V. Zifəroğlu informasiya müharibəsinin nəzəri çərçivələrini və manipulyasiya problemini tədqiq etmiş, Ə. Qasımov Vətən müharibəsi kontekstində informasiya təhlükəsizliyinin rolunu praktik aspektdə işıqlandırmış, R. Məmmədov isə dezinformasiyanı ictimai təsirin məqsədli metodu ilə qeyri-peşəkarlıq arasında dəyərləndirərək məsələyə analitik yanaşma sərgiləmişdir[4].

---

E.Əhmədov. – Bakı: Letterpress, 2015. – 408 s.; Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kitab / E.Əhmədov. – Bakı: Letterpress, 2015. – 368 s.; Əhmədov, E. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti / E.Əhmədov. – Bakı: Zərdabi, 2023. – 200 s.; Əhmədov, E. Prezident İlham Əliyevin qələbə strategiyası: əsas istiqamətlər. Diplomatik fəaliyyət. III fəsil, s.97-127 / E.Əhmədov // Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr – 10 noyabr 2020-ci il). – Bakı: Şərq-Qərb, 2021. – 444 s.

[3] Nəsirov, E.X. ABŞ və dünya 11 sentyabrdan sonra / E.X.Nəsirov. – Bakı: Bakı Universiteti, 2003. – 262 s.; Nəsirov, E.X. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri / E.X.Nəsirov. – Bakı: Elm və təhsil, 2010. – 392 s.

[4] Hüseynova, H. Beynəlxalq münasibətlərdə lobbizm / H.Hüseynova, T.Tağıyeva. – Bakı: Bakı Dövlət Universiteti, 2024. – 272 s.; Zifəroğlu, V. İnformasiya müharibəsi: nəzəri əsasları və manipulyasiya problemi / V.Zifəroğlu. – Bakı, 2019. – 208 s.; Qasımov, Ə. Vətən müharibəsində informasiya təhlükəsizliyi: [Elektron resurs] / Müdafiə Nazirliyi. – 16.03.2022. URL: https://mod.gov.az/az/pre/39556.html; Məmmədov, R. Dezinformasiya: düşünülmüş ictimai təsir metodu, yoxsa, sadəcə, qeyri-peşəkarlıq?: [Elektron resurs] / AZƏRTAC. – 04.05.2022. URL: https://azertag.az/xeber/dezinformasiya_dusunulmus_ictimai_tesir_metodu_yoxsa_sadece_qeyri_pesekarliq-2121107

U. Ələkbərovun əsərində rəqəmsallaşmanın davamlı inkişafla inteqrasiyası və ekoloji sivilizasiyanın idarə edilməsində rəqəmsal texnologiyaların həlledici rol oynaması xüsusi vurğulanır[5].

Adı çəkilən müəlliflərlə yanaşı, Azərbaycan tədqiqatçılardan R.Əliquliyev, E. Əhmədov, A.Vəliyev, A.Piriyev, K. Ruintən, F.Əliyeva, C.Eyvazov, A.Rzayev, T.Cəfərov və başqalarının tədqiqatları mövcud problemin bu və digər aspektlərini işıqlandırmışdır. Lakin bu tədqiqatların əksəriyyəti öz əksini sadəcə məqalələrdə tapmışdır.

Bununla belə, son dövrdə informasiya cəmiyyəti, yeni informasiya cəmiyyətinin inkişafının dövlətlərin siyasi süverenliyinə təhlükələri, eləcə də iqtisadiyyata və sosial inkişafa təsirləri barədə müxtəlif ixtisaslar üzrə monoqrafiya və dissertasiya işləri yazılmışdır. Məsələn, R.M. Əliquliyev "İqtisadi proseslərdə informasiya texnologiyaları" əsərində informasiya cəmiyyətinin gətirdiyi texnoloji yeniliklər və bu yeniliklərin cəmiyyətin sosial-iqtisadi həyatına təsirindən bəhs edir. Əsərdə informasiya cəmiyyətinin klassik ideoloqlarının ideyaları təqdim olunur və ona münasibət bildirilir[6].

X.Q. Niyazov dövlət informasiya siyasətinin təşəkkülü, inkişafı və informasiya təhlükəsizliyi aspektlərini araşdırmış, E. Talışınski Azərbaycanın informasiya mübarizəsində rolunu və virtual aləmdə təhlükəsizlik məsələlərini təhlil etmiş, A. İmanova informasiya cəmiyyəti və şəxsiyyətin sosiallaşmasının fəlsəfi əsaslarını işıqlandırmış, R. Hacıyeva informasiya təhlükəsizliyinin siyasi aspektlərini və dövlət siyasətindəki yerini öyrənmiş, E. Bayramzadə qloballaşma ilə informasiya cəmiyyətinin qarşılıqlı təsirini analiz etmiş, T. Cəfərov isə qlobal internet idarəçiliyi çərçivəsində kiberməkanın hüquqi problemlərini tədqiq etmişdir[7].

---

[5] Ələkbərov, U. Davamlı inkişaf və ekoloji sivilizasiyasının idarə edilməsinin əsasları / U.Ələkbərov. – Bakı: Təhsil, 2017. – 175 s.

[6] Əliquliyev, R.M. İqtisadi proseslərdə informasiya texnologiyaları. / R.M. Əliquliyev, Ə.Q. Əliyev – Bakı: Elm, –2002. – 48 s.

[7] Niyazov, X.Q. Azərbaycan Respublikasının dövlət informasiya siyasəti: təşəkkülü, inkişafı və əsas istiqamətləri: / siyasi elmlər üzrə elmlər doktoru dis. / – Bakı, 2021.; Talışınski, E. Azərbaycanın informasiya mübarizəsində yeri və rolu (şərq-qərb kontekstində): / siyasi elmlər üzrə elmlər doktoru dis. / – Bakı, 2021.;

Y. Əliyevanın tədqiqatında informasiya təhlükəsizliyi din və cəmiyyət kontekstində araşdırılır, internetin təsiri, dini faktorun informasiya təhlükəsizliyinə münasibəti və Azərbaycandakı hüquqi baza məsələləri işıqlandırılır. V. Qasımovun elmi işində isə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı yaranan informasiya təhlükəsizliyi problemləri, kompüter cinayətləri və kibercinayətkarlıq beynəlxalq təcrübə əsasında təhlil olunur[8].

M.N.Əlizadə və digərlərinin hazırladığı dərs vəsaitində informasiya təhlükəsizliyinin nəzəri əsasları, həmçinin təhlükəsizlik siyasətinin baza prinsipləri, kriptoqrafik üsullar və müdafiə alqoritmlərinin tətbiqi geniş şəkildə təqdim edilir[9]. Bununla yanaşı, G.Əbdıyeva-Əliyevanın dərs vəsaitində kibertəhlükəsizliyin fundamental anlayışları və nəzəri əsasları sistemli şəkildə təqdim olunur, həmçinin kibertəhlükəsizlik sahəsində biliklərin praktik tətbiqi ilə bağlı məlumatlar da əhatə edilir[10].

Eləcə də E. Həsənlinin Azərbaycanda informasiya təhlükəsizliyi və X. Niyazovun informasiya təhlükəsizliyinin hüquqi əsasları ilə əlaqədar məqalələrində milli maraqların qorunması,

---

İmanova, A. İnformasiya cəmiyyəti və şəxsiyyətin sosiallaşması: sosial-fəlsəfi təhlil: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018.; Hacıyeva, R. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin tədqiqinin siyasi aspektləri: / fəlsəfə üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2015.; Bayramzadə, E. Qloballaşma və informasiya cəmiyyəti: qarşılıqlı təsirin dinamikası (sosial-fəlsəfi təhlil): / fəlsəfə üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2013.; Cəfərov, T. Qlobal internet idarəçiliyi müzakirələri çərçivəsində beynəlxalq hüquqda kiberməkana yönəlik yurisdiksiya problemi: / hüquq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. – Ankara, 2023. – 21 s.; Əliyeva, Y. İnformasiya təhlükəsizliyi və din. – Bakı: TUNA, 2018. – 128 s.; Qasımov, V.Ə. İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq. – Bakı: Elm, – 2007. – 192 s.; Əlizadə, M.N., Orucova, T.V., Hacızadə, S.M. və b. İnformasiya təhlükəsizliyi: dərs vəsaiti / elmi red. Ə.Ə. Əliyev. – Bakı: MSV Nəşr, – 2018. – 388 s.

[8] Əliyeva, Y. İnformasiya təhlükəsizliyi və din. – Bakı: TUNA, 2018. – 128 s.; Qasımov, V.Ə. İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq. – Bakı: Elm, – 2007. – 192 s.

[9] Əlizadə, M.N., Orucova, T.V., Hacızadə, S.M. və b. İnformasiya təhlükəsizliyi: dərs vəsaiti / elmi red. Ə.Ə. Əliyev. – Bakı: MSV Nəşr, – 2018. – 388 s.

[10] Əbdıyeva-Əliyeva, G.Ə. Kibertəhlükəsizliyin əsasları: dərs vəsaiti. / G.Ə. Əbdıyeva-Əliyeva. – Bakı: KingPrint, – 2022. – 174 s.

hüquqi-normativ çərçivələrin təkmilləşdirilməsi və beynəlxalq təcrübə ilə müqayisəli yanaşmalar ön plana çıxarılır[11].

Müasir beynəlxalq münasibətlər, post-sənaye cəmiyyətinin formalaşması ideyalarının təsiri altında inkişaf edir. Bu mövzuda araşdırmaları iki əsas qrupa bölmək olar. Birinci qrupa aid müəlliflər informasiya inqilabı şəraitində münaqişələrin xarakterinin köklü şəkildə dəyişdiyini müdafiə edirlərsə (D. Ronfeld, M. Kreveld, M. But, J. Bodriyar, A. Toffler, J. Der Derian, J. Arkilla, K. Qrey, S. Merden, V.İ. Slipçenko, A.G. Duqin, S.N. Konopatov, V.V. Yudin), ikinci qrupa aid müəlliflər informasiya inqilabı və ondan irəli gələn sosial dəyişikliklərin münaqişələrin xarakterinə müəyyən qədər təsir etdiyini, münaqişənin mahiyyətinin, onun əsas motiv və dinamikasının informasiya məkanında deyil, maddi sahədə qaldığını bildirirlər (M. O'Hanlon, F. Kaqen, K. Makinnes, D. Betz, M.A. Gareeva, O.A. Belkova, O.N. Kalinovski, V.İ. Orlyanski, V.N. Konışeva)[12].

A.İ. Smirnov rəqəmsal dövrdə İKT-nin beynəlxalq münasibətlərə təsirini, elektron diplomatiya və hibrid müharibələr kontekstində informasiya təhlükəsizliyi məsələlərini araşdırmış, Q. Poçepsov isə rəngli inqilabları müxtəlif regionlarda müqayisə edərək onların bolşevik inqilabları ilə oxşarlıqlarını göstərmişdir[13].

---

[11] Niyazov, X. İnformasiya təhlükəsizliyi, hüquqi əsasları, müqayisəli yanaşma // İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri: IV respublika konfransının materialları. – Bakı – 14 dekabr – 2018. – s. 22–26.; Həsənli, E. Azərbaycanda informasiya təhlükəsizliyi milli maraqlar kontekstində // İnformasiya təhlükəsizliyinin aktual problemləri: III respublika elmi-praktiki seminarının materialları.– Bakı – 8 dekabr – 2017. – s. 42–45.

[12] Журавлева, Е.Ю. Глобальная информационная компьютерная сеть интернет: проблемы становления и развития (социально-философский анализ): автореф. дис. … канд. филос. наук [Электронный ресурс]. – URL: https://core.ac.uk/download/pdf/197379898.pdf

[13] Смирнов, А.И. Современные информационные технологии в международных отношениях: монография [Электронный ресурс] / А.И. Смирнов. – Москва: Мгимо-Университет, 2017. – 334 с. – URL: https://mgimo.ru/upload/iblock/b41/Смирнов_СИТМО_10__2017.pdf;
Почепцов, Г. Революция.com: основы протестной инженерии / Г. Почепцов. – Москва: Европа, – 2005. – 513 с.

İ.A. İsayev interneti yeni siyasi idarəetmə texnologiyası və qlobal hakimiyyət forması kimi təqdim etmiş, R. Barbruk və Q. Lovink onun rəngli inqilablar, ərəb ölkələri və postsovet məkanında siyasi transformasiyalardakı rolunu təhlil etmiş, D. Şarp İKT-ni avtoritar rejimləri sarsıdan və demokratik keçidi təşviq edən yumşaq güc vasitəsi kimi izah etmiş, D. Bell Qərb ideologiyasının sona çatdığını və postsənaye cəmiyyətinə keçidi vurğulamış, Z. Bjezinski isə texnoloji inkişafın əsasən inkişaf etmiş ölkələrdə meydana çıxaraq qloballaşma fonunda millət-dövlətlərin zəifləməsinə və yeni sosial-siyasi dəyişikliklərə gətirib çıxardığını proqnozlaşdırmışdır[14].

P. Druker kapitalizmin ənənəvi formalarının çökməkdə olduğunu, lakin bazar iqtisadiyyatı və bank sistemlərinin yeni dövrün tələblərinə uyğunlaşdığını vurğulamış, E.Toffler Qərb cəmiyyətlərinin informasiya əsasında yeni sivilizasiyaya keçdiyini və bunun iştirakçı demokratiyanı gücləndirdiyini göstərmiş, Y. Masuda gələcəkdə qərarların elitalardan cəmiyyətə keçəcəyini və sülhpərvər, kiçik dövlət aparatlı bir quruluşun formalaşacağını proqnozlaşdırmış, K. Kastels isə müasir kapitalizmi informasiya texnologiyalarının formalaşdırdığı yeni iqtisadiyyat sistemi kimi qiymətləndirərək onun iqtisadiyyat, siyasət və mədəniyyətdə dərin transformasiyalar yaratdığını bildirmişdir[15].

---

[14] Исаев, И.А. «Машина власти» в виртуальном пространстве (формирование образа) / И.А. Исаев. – Москва: Проспект, – 2021. – 384 с.; Барбрук, Р. Интернет-революция / Р. Барбрук. – Москва: Ad Marginem Press, – 2015. – 128 с.; Ловинк, Г. Критическая теория интернета / Г. Ловинк. – Москва: Ad Marginem Press; Музей современного искусства «Гараж», – 2019. – 304 с.; Шарп, Д. От диктатуры к демократии: стратегия и тактика освобождения / Д. Шарп; пер. с англ. Н. Козловской [Электронный ресурс]. – Москва: Новое издательство, – 2005. – 84 с. – URL: http://filelibsnu.at.ua/navchalno-metod/uchebniki/Sharp.PDF; Bell, D. The End of Ideology // Government and Opposition. – Vol. 23, № 2. – Cambridge: Cambridge University Press, – 1988. – p. 131–150. – URL: https://www.jstor.org/stable/44482382; Bell, D. The Coming of Post-industrial Society: a venture in social forecasting / D. Bell. – New York: Basic Books, – 2001. – 616 p.; Brzezinski, Z. Between Two Ages: America’s Role in the Technetronic Era [Electronic resource] / Z. Brzezinski. – New York: The Viking Press, – 1970. – 123 p. – URL: https://solipsyzm.pl/between2ages.pdf

[15] Drucker, P. Management – Tasks, Responsibilities, Practices [Electronic resource] / P. Drucker. – New York: Truman Talley Books, E.P. Dutton, – 1986. – URL:

Beləliklə, görürük ki, mövzu üzrə araşdırılmış ədəbiyyatlar informasiya cəmiyyəti, informasiya təhlükəsizliyi, dövlət informasiya siyasəti və rəqəmsal transformasiyanın siyasi, sosial və iqtisadi təsirləri kimi müxtəlif aspektləri əhatə etməsi baxımından əhəmiyyətli töhfə verir. Bununla belə, tədqiqatların əksəriyyəti ya konseptual çərçivədə ümumi yanaşmalara söykənir, ya da ayrı-ayrı aspektləri fraqmentar şəkildə əhatə edir. Xüsusilə İKT-nin beynəlxalq münasibətlərdə rolu, geosiyasi təsirləri və qlobal informasiya müharibəsi kontekstində sistemli və strukturlaşdırılmış tədqiqatların çatışmazlığı müşahidə olunur. Bu sahədə empirik məlumatlara əsaslanan, müqayisəli və çoxsəviyyəli yanaşmalarla zəngin olan geniş miqyaslı elmi əsərlərin azlığı mövzunun daha dərindən və inteqral şəkildə işlənməsinə ehtiyac olduğunu göstərir. Bizim dissertasiya işimizin meydana çıxması da bu zərurətdən doğmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir beynəlxalq münasibətlərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, tədqiqatın predmeti isə müasir beynəlxalq münasibətlərdə İKT-nin yeri, rolu və təsiridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasına kontekstində İKT-nin müasir beynəlxalq münasibətlərə təsirlərinin müxtəlif aspektlərini tədqiq etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr ortaya qoyulmuşdur:

– Qlobal informasiya cəmiyyəti konsepsiyalarının nəzəri əsaslarını işləmək;

– Qlobal informasiya cəmiyyətinin formalaşmasında və qlobal idarəçilikdə İKT amilini öyrənmək;

– İKT-nin müasir diplomatiyaya təsirlərinin sistemli təhlilini aparmaq;

---

https://www.academia.edu/7194379/Management_Tasks_Responsibilitiesit_Peter_Drucker_; Тоффлер, Э. Третья волна [Электронный ресурс] / Э. Тоффлер. – Москва: Центр гуманитарных технологий, 27.01.2011. – URL: https://gtmarket.ru/library/basis/4821; Masuda, Y. The Information Society as Postindustrial Society / Y. Masuda. – Washington: World Future Soc., – 1983. – 171 p.; Castells, M. City, Class and Power / M. Castells. – London: St. Martins Press, – 1978. – 244 p.

– Beynəlxalq informasiya müharibələrində İKT amilini təhlil etmək;

– İnformasiya təhlükəsizliyini milli təhlükəsizlik amili kimi tədqiq etmək;

– Rəqəmsallaşmanın Azərbaycanın xarici siyasəti və informasiya təhlükəsizliyinə təsirlərini araşdırmaq;

– Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsinin əsas istiqamətlərini açıqlamaq;

– İkinci Qarabağ müharibəsini beynəlxalq informasiya müharibəsi kontekstində yenidən nəzərdən keçirmək.

**Tədqiqatın metodları.** Tədqiqat çərçivəsində qlobal siyasi və sosial-iqtisadi transformasiyalar fonunda internetin inkişaf meylləri və perspektivlərinin hərtərəfli qiymətləndirilməsi məqsədilə müxtəlif metodoloji yanaşmalardan istifadə olunmuşdur. İlk növbədə, mövcud vəziyyəti dərindən öyrənmək və beynəlxalq münasibətlər sistemində internetin rolunu kompleks şəkildə təhlil etmək üçün sistemli təhlil və müqayisəli təhlil yanaşmaları tətbiq edilmişdir. Qərb sosial-fəlsəfi fikrində formalaşmış analitik-metodoloji prinsiplər və konkret-tarixilik metodu tədqiqatın nəzəri çərçivəsinin qurulmasında mühüm yer tutmuşdur. Dissertasiya araşdırmasının konseptual əsasları hazırlanarkən həm yerli, həm də xarici mütəxəssislərin, daha konkret desək, politoloqların, siyasi sosioloqların, beynəlxalq münasibətlər sahəsində tədqiqatlar aparan alimlərin, iqtisadçıların və filosofların elmi əsərlərinə istinad olunmuşdur. Eyni zamanda, statistik və analitik materialların təhlili internetin beynəlxalq münasibətlərə təsir mexanizmlərini və bu təsirin uzunmüddətli nəticələrini müəyyənləşdirməyə imkan vermişdir.

Bununla yanaşı, tədqiqatın bəzi sahələrində induktiv metod tətbiq olunaraq empirik məlumatların ümumiləşdirilməsi və sistemləşdirilməsi həyata keçirilmiş, digər tərəfdən isə inkişaf etməkdə olan ölkələrin xarici siyasətində müşahidə olunan dəyişiklikləri təhlil etmək üçün hadisə və proseslərin tsiklik xarakterinə əsaslanan deduksiya metodundan istifadə olunmuşdur. Tədqiqatın empirik bazasını formalaşdırmaq üçün BMT Baş Assambleyasının qəbul etdiyi rəsmi sənədlər, xüsusilə də informasiya və rabitə texnologiyalarının tətbiqi ilə bağlı qərar və qətnamələrdən,

həmçinin inkişaf etməkdə olan ölkələrdə İKT-nin yayılması üzrə beynəlxalq analitik sənədlərdən istifadə olunmuşdur. Bundan əlavə, mövzu üzrə dərc edilmiş elmi məqalələr, dəyirmi masa müzakirələrinin materialları, elmi-praktik konfransların hesabatları və təqdimatları, həmçinin BMT-yə məxsus digər rəsmi internet resursları və statistik məcmuələrdə əks olunmuş göstəricilər empirik əsas kimi cəlb edilmişdir.

Tədqiqatda eləcə də analiz-sintez metodundan istifadə olunmuşdur. Əvvəlcə İKT-nin beynəlxalq münasibətlərdə meydana gətirdiyi imkanlar və risklər ayrı-ayrılıqda təhlil edilmişdir. Daha sonra əldə olunan nəticələr sintez edilərək mövzunun bütöv elmi mənzərəsi ortaya qoyulmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

– Qlobal informasiya cəmiyyəti konsepsiyası informasiya texnologiyalarının və bununla bağlı informasiyanın yayılmasının müasir dünyada əsas rol oynaması və cəmiyyətin müxtəlif sahələrinə mühüm təsir göstərməsi ideyasına əsaslanır.

– İnformasiya-kommunikasiya texnologiyaları amili qlobal informasiya cəmiyyətinin formalaşmasında mühüm rol oynayır; İKT-nin inkişafının beynəlxalq münasibətlərə həm müsbət, həm də mənfi təsirləri var.

– Müsbət təsirlər kontekstində, İKT-nin inkişafı beynəlxalq əlaqələri gücləndirərək ünsiyyəti asanlaşdırır, qlobal bazarları genişləndirir, təhsili əlçatan edir, biznesin səmərəliliyini artırır və mədəni mübadiləni təşviq etməklə ölkələrarası əməkdaşlığı sürətləndirir.

– Mənfi təsirlər kontekstində, İKT-nin inkişafı beynəlxalq əlaqələrə mənfi təsir göstərərək kibertəhlükəsizlik risklərini artırır, dezinformasiyanın yayılmasını asanlaşdırır, məxfilik problemləri yaradır və texnologiyaya çıxışdakı bərabərsizlikləri dərinləşdirir.

– İKT-nin inkişafı qlobal informasiya cəmiyyətinin formalaşmasının əsas hərəkətverici qüvvəsinə çevrilərək, beynəlxalq idarəçilikdə qərarların real vaxt məlumatları əsasında qəbulunu təmin edir və texnologiyalara çıxışdakı bərabərsizliklər yeni güc münasibətlərini formalaşdırır.

– İnformasiya təhlükəsizliyi müasir dünyada milli təhlükəsizliyin mühüm amilidir. Bu baxımdan, beynəlxalq informasiya müharibələrində İKT amili mühüm rol oynayır.

– İKT-nin diplomatik praktikaya inteqrasiyası dövlətlərin beynəlxalq gündəmləri yenidən formalaşdırmaq və ictimai rəyə təsir göstərmək imkanlarını artıraraq, ənənəvi qapalı diplomatiya modellərini kütləvi iştirak və informasiya asimmetriyasının azaldılması əsasında transformasiya edir.

– İKT-nin tətbiqi dövlətlərarası diplomatik münasibətlərin sürətini və təsir gücünü artıraraq beynəlxalq siyasətdə yeni ünsiyyət formaları formalaşdırır.

– Rəqəmsallaşma Azərbaycanın xarici siyasətində qlobal kommunikasiya imkanlarını genişləndirməklə yanaşı, informasiya təhlükəsizliyi risklərinin idarə olunmasını yeni bir zərurətə çevirir.

– İnformasiya təhlükəsizliyi baxımından, Azərbaycanın dövlət təhlükəsizliyinə xarici təhdidlər mövcuddur.

– Ermənistan tərəfi, xüsusilə də revanşist müxalifət kanalları informasiya müharibəsinin bütün aspektlərindən istifadə edərək Azərbaycana qarşı geniş miqyaslı qərəzli informasiya müharibəsi aparır.

– İkinci Qarabağ müharibəsi informasiya müharibəsinin mühüm rol oynadığı müasir tipli, hibrid xarakterli müharibədir. O, beynəlxalq informasiya müharibəsi kontekstində müasir münaqişələrdə informasiya məkanının əhəmiyyətini br daha təsdiq etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat aşağıdakı elmi yeniliklərə malikdir:

– Azərbaycan siyasi elmində ilk dəfə informasiya-kommunikasiya texnologiyalarının beynəlxalq münasibətlərə təsirləri dixotomik xarakteri ilə öyrənilmiş, belə ki, həm müsbət, həm də mənfi təsirlər müəyyənləşdirilmişdir.

– Tədqiqatda müəyyən edilmişdir ki, informasiya və kommunikasiya texnologiyalarının beynəlxalq münasibətlərə müsbət təsiri əsasən informasiya mübadiləsinin sürətlənməsi və qarşılıqlı ünsiyyətin təkmilləşməsi sayəsində dövlətlər və xalqlar arasında etimadın artması, vətəndaşların siyasi proseslərdə iştirak

imkanlarının genişlənməsi ilə demokratiyanın və vətəndaş cəmiyyətinin güclənməsi, bilik və təhsil resurslarına çıxışın asanlaşması fonunda mədəni inteqrasiyanın dərinləşməsi və nəhayət iqtisadi əlaqələrin genişlənməsi ilə qlobal rifahın yüksəlməsi kimi sahələrdə özünü göstərir; mənfi təsirləri isə ilk növbədə dövlətlərin kibercinayətlər və kiberhücumlar qarşısında artan həssaslığı, dezinformasiya və nifrət çağırışlarının yayılması nəticəsində münaqişələrin dərinləşməsi və diplomatik münasibətlərin gərginləşməsi, eləcə də texnologiyadan asılılığın artması ilə dövlətlər arasında bərabərsizliklərin güclənməsi və milli suverenliyin pozulması kimi risklərdə özünü göstərir.

– Azərbaycan siyasi elmində ilk dəfə olaraq rəqəmsal diplomatiya (e-diplomatiya) fenomeni sistemli şəkildə nəzəri və praktiki aspektlərdə işlənmiş, onun beynəlxalq münasibətlərdə yeri və rolu, siyasi kommunikasiyada yaratdığı yeni imkanlar və milli diplomatiya modelinə gətirdiyi transformativ dəyişikliklər elmi dövriyyəyə daxil edilmişdir.

– Azərbaycanın xarici siyasətində rəqəmsallaşmanın imkanları ilə informasiya təhlükəsizliyi çağırışlarının qarşılıqlı təsiri ilk dəfə sistemli şəkildə təhlil edilmişdir.

– Əvvəlki işlərdən fərqli olaraq, tədqiqatda qlobal informasiya cəmiyyəti konsepsiyaları müqayisəli şəkildə təhlil edilərək onlara tənqidi yanaşma sərgilənmiş, informasiya cəmiyyətinin inkişafı Azərbaycan nümunəsində milli dövlətlərin perspektivi kontekstindən təhlil edilmişdir.

– Azərbaycan siyasi elmində ilk dəfə İKT-nin diplomatiya proseslərinə təsiri ayrıca istiqamət kimi nəzərdən keçirilmiş və rəqəmsal diplomatiya anlayışının konseptual çərçivəsi formalaşdırılmışdır.

– Nəhayət, tədqiqatda Ermənistanın Azərbaycana qarşı apardığı informasiya müharibəsinin əsas istiqamətləri və strategiyaları təhlil edilmiş, Azərbaycanın bu müharibəyə qarşı tətbiq etdiyi strategiyalar qiymətləndirilmiş, tərəflərin güclü və zəif cəhətləri müəyyənləşdirilmiş və milli təhlükəsizliyin təmin olunmasına yönəlmiş təkliflər irəli sürülmüşdür; bu təhlil fonunda ikinci Qarabağ müharibəsi beynəlxalq informasiya müharibəsi

kontekstində tədqiq edilərək münaqişənin hibrid xarakteri elmi əsaslarla müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, o, informasiya texnologiyalarının beynəlxalq münasibətlərə təsiri sahəsində gələcək elmi araşdırmalar üçün sistemli və hərtərəfli baza rolunu oynayır. Tədqiqatın müxtəlif istiqamətləri əsasında fərqli mövzularda elmi məqalələrin, dissertasiya işlərinin və analitik araşdırmaların hazırlanması mümkündür. Eyni zamanda, tədqiqat materialları monoqrafiya və dərsliklər üçün original və zəngin mənbə kimi çıxış edə bilər.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, dissertasiya işində təqdim olunan elmi nəticə və təhlillər aidiyyatı dövlət qurumlarının əməkdaşları üçün informasiya təhlükəsizliyi və beynəlxalq informasiya münasibətləri sahəsində dəyərli nəzəri-praktiki mənbə rolunu oynaya bilər. Eyni zamanda, bu sahədə çalışan praktikantlar və media nümayəndələri, xüsusilə jurnalistlər üçün tədqiqat materialları aktual mövzularda istinad edilə bilən etibarlı məlumat bazası kimi xidmət edə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın materialları dissertantın müxtəlif vaxtlarda elmi məcmuələrdə dərc olunmuş məqalələrində əksini tapmışdır. İşin bəzi tezisləri respublikada və xarici ölkələrdə keçirilən bir sıra elmi konfrans və seminarlarda səslənmişdir. Bundan əlavə, dissertasiyanın mövzusu ilə bağlı bir sıra məqalələr AAK-ın tövsiyə etdiyi elmi jurnallarda dərc edilmiş, həmçinin "virtual reallıq və beynəlxalq diplomatiya" haqqındakı tədqiqat beynəlxalq indeksə daxil olan elmi-nəzəri jurnalda nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi

həcmi 242057 işarədən ibarətdir. O cümlədən, tədqiqat işinin struktur bölmələrinin ayrılıqda həcmi aşağıdakı kimidir:

– Giriş – 25018 işarə;

– Dissertasiyanın əsas məzmunu – 210809 işarə, o cümlədən birinci fəsil 70253, ikinci fəsil 69122, üçüncü fəsil isə 74434 işarə;

– Nəticə – 6230 işarə.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, eyni zmanada məqsəd və vəzifələri müəyyənləşdirilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, müdafiəyə çıxarılan müddəalar verilmiş, işin strukturu və həcmi qısa şəkildə göstərilmişdir.

Tədqiqatın birinci fəsli "**İKT və qlobal informasiya cəmiyyətinin idarə olunmasının konseptual məsələləri**" adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Bu fəslin "**Qlobal informasiya cəmiyyəti konsepsiyalarının nəzəri əsasları**" başlıqlı birinci paraqrafında qlobal informasiya cəmiyyətinin nəzəri əsasları və bu konsepsiyanın müxtəlif tədqiqatçılar tərəfindən irəli sürülmüş yanaşmaları təhlil edilir. Paraqrafda informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafının cəmiyyətin bütün sahələrinə təsiri, ənənəvi sosial-siyasi strukturların dəyişməsi və virtual mühitin yeni reallıq kimi formalaşması kontekstində müzakirə aparılır. D. Bellin postindustrial cəmiyyət və meritokratiya ideyaları, Z. Bjezinskinin texnokratik cəmiyyət və qlobalist baxışları, A. Tofflerin iştirakçı demokratiya və kompüterləşmə fikirləri, M. Kastellsin informasiya şəbəkələri və iqtisadi inteqrasiya vurğuları, Y. Masudanın utopik "*Computopia*" modeli və P. Drukerin bilik əsaslı transkapitalist cəmiyyəti kimi müxtəlif nəzəri yanaşmalar araşdırılır. Eyni zamanda, bu yanaşmaların məhdudiyyətləri, texnoloji totalitarizmlə bağlı risklər, informasiya imperializmi, mədəni nəzarət və yeni tip müstəmləkəlik təhlükələri də qeyd olunur. Müəllif informasiya cəmiyyətinin təkcə texnoloji tərəqqi kimi deyil, həm də siyasi manipulyasiya, sosial qeyri-bərabərlik və demokratik

proseslərin süni intellekt tərəfindən əvəz olunması baxımından tənqidi analizini verir və bu cəmiyyət modelinin mütləq deyil, ziddiyyətli və ciddi nəticələr doğura biləcək bir proses olduğunu əsaslandırır.

Bu paraqrafda informasiya cəmiyyətinin siyasi və ideoloji müstəvidə doğurduğu mübahisəli məqamlar, tənqidlər və ziddiyyətlər araşdırılır. Paraqrafda sol-liberal düşüncə sahiblərinin texnokratik "supersənaye" cəmiyyətinə qarşı "humanist postsənaye" cəmiyyəti ideyaları, informasiya texnologiyalarının demokratiyanı genişləndirmək əvəzinə, süni intellekt və bilik elitasının nəzarətində mərkəzləşdirilmiş, manipulyasiya olunmuş bir idarəetmə sisteminə çevrilməsi ilə bağlı narahatlıqları və bu vəziyyətin əsl demokratiya anlayışına zidd olduğu vurğulanır. Kompüterləşdirilmiş qərarların insan məsuliyyətini əvəzlədiyi, hüquq və sosial bərabərlik anlayışlarının zəiflədiyi, bilik və texnologiyaya çıxışdakı qeyri-bərabərliyin mövcud olduğu qeyd olunur. Eyni zamanda İKT-nin müsbət cəhətləri – vətəndaş cəmiyyətinin inkişafı, dövlətlərin beynəlxalq sistemdə mövqelərinin güclənməsi, şəffaflığın artması kimi imkanlar da tanınır. Lakin müəllif qeyd edir ki, informasiya cəmiyyətinin tərəfdarları texnoloji tərəqqini birtərəfli və utopik şəkildə izah edir, qlobal yoxsulluq, müharibə, işsizlik, sosial bərabərsizlik kimi reallıqları nəzərə almır və "ümumi rifah" anlayışını əsaslandırmadan irəli sürür. Beləliklə, müəllif irəli sürür ki, informasiya cəmiyyətinə keçidlə bağlı iddialar həm texnoloji, həm də sosial baxımdan ziddiyyətlidir və dünyada bu keçidin qeyri-bərabər formada reallaşması postmodern düşüncədə bilik anlayışının özü ilə də problematik vəziyyət yaradıb.

Fəslin ikinci paraqrafı **"Qlobal informasiya cəmiyyətinin formalaşmasında və qlobal idarəçilikdə İKT amili"** adlanır. Bu paraqrafda regionların informasiya cəmiyyətinə hazırlıq indeksinin formalaşmasında iki əsas istiqamət nəzərə alınır və qeyd olunur ki, bunlardan biri informasiya cəmiyyətinin inkişaf amilləridir, digəri isə İKT-nin inkişaf üçün istifadəsidir. İnkişaf amilləri çərçivəsində insan kapitalının mövcudluğu, İKT infrastrukturunun səviyyəsi və ümumi iqtisadi mühitin keyfiyyəti xüsusi rol oynayır. İnsan kapitalı həm İKT-nin tətbiqi üçün zəruri bilik və bacarıqların mövcudluğunu, həm

də yeni texnologiyaların səmərəli istifadəsi üçün sosial potensialı əks etdirir; İKT infrastrukturu isə texnoloji şəbəkələrin, internetə çıxış imkanlarının və texnologiyaların yayılmasının real vəziyyətini göstərir; iqtisadi mühit isə bu imkanların reallaşmasına şərait yaradan iqtisadi stabilliyi və resurs təminatını nəzərdə tutur. Digər tərəfdən, qeyd olunur ki, inkişaf üçün İKT-nin istifadəsi sahəsində dövlət və bələdiyyə idarəçiliyində rəqəmsal texnologiyaların tətbiqi, sahibkarlıqda rəqəmsal həllərin genişləndirilməsi, əhalinin gündəlik məişətində İKT-nin istifadəsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, mədəniyyət sahəsində İKT-nin tətbiqi müxtəlif dəyərlərin qorunması və yayılması üçün imkanlar açır, səhiyyədə İKT-nin istifadəsi tibbi xidmətlərin keyfiyyətini yüksəldir, təhsildə İKT isə biliklərin daha geniş kütləyə çatdırılmasına və müasir tədris metodlarının tətbiqinə şərait yaradır. Beləliklə, vurğulanır ki, regionların informasiya cəmiyyətinə hazırlıq indeksi yalnız texnoloji və iqtisadi amillərlə deyil, həm də cəmiyyətin sosial, mədəni, səhiyyə və təhsil sahələrində İKT-dən istifadənin səviyyəsi ilə müəyyən olunur.

Müəllif belə nəticəyə gəlir ki, İKT ilk olaraq II Dünya müharibəsindən sonra ABŞ və SSRİ arasında gedən soyuq müharibə dövründə əsasən hərbi məqsədlərlə yaradılmışdı. Lakin 1990-cı illərdən etibarən onun kommersiya və siyasi baxımdan faydalı potensialı üzə çıxarıldı və nəticədə "İnternet" adlı qlobal şəbəkə formalaşdırıldı. İnternetin sırf hərbi sahədən çıxaraq sosial müstəviyə keçməsinin başlıca məqsədi qlobal informasiya cəmiyyətini və yeni dünya nizamını meydana gətirmək idi. Bu yeni informasiya mühitində ictimai, mədəni, siyasi və iqtisadi institutlar getdikcə virtual müstəviyə transfer olunaraq orada qlobal inteqrasiya nəticəsində dərin dəyişikliklərə uğrayır.

Dissertasiya işinin "**İKT - nin müasir beynəlxalq münasibətlərə təsir mexanizmləri**" adlı II fəslinin **"İKT-nin müasir diplomatiyaya təsiri"** adlı birinci paraqrafında müəllif qeyd edir ki, müasir beynəlxalq münasibətlər sistemində İKT-nin tətbiqi diplomatiyanın ənənəvi strukturunu köklü şəkildə dəyişmişdir. İlkin olaraq, rəqəmsal diplomatiya və onun müxtəlif formaları – sosial media üzərindən *Facebook*, *Twitter* və *Instagram* diplomatiyası,

onlayn diplomatiya, real vaxt rejimində həyata keçirilən diplomatik ünsiyyət, videokonfranslar, virtual sammitlər və onlayn forumlar dövlətlərin və beynəlxalq təşkilatların münasibətlərini daha çevik və dinamik hala gətirmişdir.

Virtual reallıq texnologiyaları beynəlxalq diplomatiyada yeni müzakirə məkanları, çevik və səmərəli əməkdaşlıq imkanları yaradır, dövlətlərin məsafə və zaman məhdudiyyətlərini aşaraq daha sürətli və genişmiqyaslı münasibətlər qurmasına şərait yaradır. Bununla yanaşı, kibertəhlükəsizlik və rəqəmsal bərabərsizlik kimi problemlər bu texnologiyaların tətbiqində əsas çağırış olaraq qalır[16].

Digər tərəfdən, vurğulanır ki, süni intellektin diplomatiyada istifadəsi son illərdə mühüm bir tendensiyaya çevrilmişdir. Süni intellekt diplomatiyası beynəlxalq münasibətlərdə "yumşaq kiber güc"ün tətbiqi, ictimai diplomatiyanın gücləndirilməsi, həmçinin diplomatik qərarların modelləşdirilməsi proseslərində istifadə olunur. Süni intellekt böyük verilənlərin (*big data*) təhlili vasitəsilə ictimai rəyin öyrənilməsi, risklərin proqnozlaşdırılması və rəqəmsal geosiyasətin formalaşması üçün yeni imkanlar yaradır. Bu isə diplomatiyanın klassik mexanizmlərindən fərqli olaraq, texnologiya əsaslı proqnozlaşdırma və strateji planlaşdırma qabiliyyətlərini inkişaf etdirmişdir.

Nəhayət, İKT-nin müasir diplomatiyaya təsiri dövlətlərin güc resurslarının tətbiqi formasında da özünü göstərir. "Yumşaq güc" (*soft power*), "ağıllı güc" (*smart power*) və "kəskin güc" (*sharp power*) konsepsiyalarının diplomatiyada istifadəsi İKT vasitəsilə daha da genişlənmişdir. Rəqəmsal mühitdə yumşaq güc ictimai diplomatiyanın mühüm alətinə çevrilərək dövlətlərin mədəniyyət, dəyərlər və ideologiyalar üzərindən təsir imkanlarını artırmışdır. Ağıllı güc texnologiya dəstəyi ilə yumşaq və sərt gücün sintezini mümkün etmiş; kəskin güc isə dezinformasiya, kibertəsirlər və rəqəmsal manipulyasiya vasitəsilə diplomatiyada yeni təhlükə və imkanlar yaradaraq beynəlxalq münasibətlərin qeyri-ənənəvi istiqamətlərini formalaşdırmışdır. Bu baxımdan, İKT-nin

[16] Mehdiyev, N. Virtual Reality and International Diplomacy // – Riga: Baltic Journal of Legal and Social Sciences, – 2025. – № 2, – p. 205-212. URL: http://baltijapublishing.lv/ index.php/bjlss/issue/view/177/368

diplomatiyaya təsiri yalnız texniki və kommunikasiya baxımından deyil, həm də güc siyasətinin yeni formalarının tətbiqi və dövlətlərin beynəlxalq aləmdə öz mövqelərini formalaşdırma üsullarında əsaslı dəyişikliklərə səbəb olmuşdur.

Fəslin **“Beynəlxalq informasiya müharibələrində İKT amili”** adlı ikinci paraqrafında müəllif göstərir ki, ABŞ və NATO-nun müasir hərbi doktrinasında hərbi təcavüzdən əvvəl “müharibənin sıfır mərhələsi” kimi informasiya müharibəsi aparılır: rəqəmsal təbliğat və dezinformasiya ilə hədəf ölkənin beynəlxalq imicinə zərbə vurulur, “hüquqi əsas” üçün narrativlər qurulur, infosanksiyalarla (maliyyə-kommunikasiya blokadaları) təcrid dərinləşdirilir, paralel olaraq kibercasusluq və kiberdiversiya (kritik infrastruktura sızma, rabitə və idarəetmə sistemlərinə “məntiq bombaları”, zərərli kodların yerləşdirilməsi) həyata keçirilir. Bu mərhələnin məqsədi düşmən cəmiyyətində parçalanma yaratmaq, qərarverən elitanı psixoloji təzyiqlə zəiflətmək, daxili legitimliyi aşındırmaq və mümkün qədər az hərbi risklə strateji məqsədə yaxınlaşmaqdır.

Hərbi təcavüz başladıqda informasiya müharibəsi ikinci mərhələyə keçir və döyüş əməliyyatları ilə sinxronlaşdırılmış psixoloji əməliyyatlar, real vaxt dezinformasiyası, KİV və sosial platformalar üzərindən kütləvi təsir, eləcə də komanda–idarəetmə zəncirinin pozulmasına yönəlmiş kiberhücumlarla intensivləşir: televiziya/radio mərkəzlərinin susdurulması və ya ələ keçirilməsi, saxta lider çıxışlarının yayılması, ordunun logistika və rabitə sistemlərinin iflici, enerji və maliyyə infrastrukturuna zərbələr daxili ruh düşkünlüyünü maksimuma çatdırmağı hədəfləyir. Bu şəraitdə müdafiə yalnız kinetik imkanlarla deyil, milli informasiya ekosisteminin dayanıqlığı ilə təmin oluna bilər; əks təqdirdə, informasiya mühitində üstünlüyü ələ alan tərəf hərbi mərhələnin taleyini əvvəlcədən həll edir.

Bu yarımfəsildə həmçinin rəngli inqilablar informasiya müharibəsi kontekstində işlənir və qeyd olunur ki, “ərəb baharı” proseslərində sosial şəbəkələrin və İKT-nin rolu barədə mübahisələr mövcud olsa da, onların əsas təsiri etirazların koordinasiyası,

məlumatların yayılması və ictimai şüurun formalaşdırılması ilə bağlı olmuşdur.

Eyni zamanda, vurğulanır ki, İKT və sosial şəbəkələr rəngli inqilabların əsas tətikçisi deyil, onların idarə olunmasında və genişlənməsində mühüm vasitə kimi çıxış etmişdir.

Fəslin **"İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik amili kimi"** üçüncü paraqrafında müəllif tərəfindən qeyd olunur ki, informasiya təhlükəsizliyi milli təhlükəsizliyin əsas tərkib hissəsidir: rəqəmsal texnologiyaların genişlənməsi fonunda kiberhücumlar, məlumat sızmaları və kritik infrastrukturun iflici kimi risklər artır, buna görə məxfilik, bütövlük və əlçatanlığın qorunması dövlət siyasətinin prioritetinə çevrilir.

Kiberterrorizm yalnız texnoloji deyil, həm də hüquqi, siyasi və sosial ölçüləri ilə milli və beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaradır. Onunla mübarizə isə multidisipliner yanaşma, gücləndirilmiş beynəlxalq əməkdaşlıq və müasir texnologiyaların tətbiqi ilə mümkün ola bilər[17].

Bu siyasət hüquqi-normativ bazanın (məlumatların emalı və qorunması, kibercinayətkarlığın qarşısı), institusional idarəetmənin (kiber institutların rol və səlahiyyətləri), həmçinin texniki-təşkili tədbirlərin (şəbəkə müdafiəsi, proqram təminatının yenilənməsi, işçi təlimi, monitorinq və insidentə cavab) kompleksini tələb edir.

Paraqrafda həmçinin göstərilir ki, beynəlxalq təşkilatların təhlükəsizlik konsepsiyaları müasir dövrdə regional və qlobal təhlükəsizlik siyasətinin formalaşmasında mühüm rol oynayır. Avropa İttifaqının Təhlükəsizlik Konsepsiyası (2003) terrorizm, kütləvi silahların yayılması, münaqişələr və kibertəhlükəsizlik kimi təhdidlərin qarşısının alınmasına yönəlmişdir; NATO isə kollektiv müdafiə və kiberməkanda dayanıqlılıq prinsipini əsas götürərək üzv ölkələrin birgə kibermüdafiə imkanlarını gücləndirir və Tallində yerləşən CCDCOE vasitəsilə fəaliyyətini əlaqələndirir. Şanxay Əməkdaşlıq Təşkilatı (2001) terrorizm, transsərhəd cinayət və

[17] Mehdiyev, N. Cyberterrorism and National Security // International and National Security: Theoretical and Applied Aspects. Theses of the IX International Scientific-Practical Conference. In two parts. – Part II. – Dnipro: Dnipro State University of Internal Affairs – March 21, – 2025, – p. 403-405.

kiberhücumlarla mübarizəni prioritet elan etmiş, Regional Antiterror Strukturu (RATS) çərçivəsində informasiya təhlükəsizliyi üzrə əməkdaşlığı gücləndirmişdir. Türk Dövlətləri Təşkilatı isə informasiya təhlükəsizliyi, korrupsiya və cinayətkarlıqla mübarizə, əqli mülkiyyətin qorunması və terror təhlükəsinə qarşı tədbirləri təhlükəsizlik siyasətinin əsas istiqamətləri kimi müəyyənləşdirir. G20 səviyyəsində rəqəmsal təhlükəsizlik, kritik informasiya infrastrukturunun müdafiəsi və kibercinayətkarlıqla mübarizə məsələləri Osaka Sammitində (2019) qəbul edilmiş sənədlərlə təsdiqlənmiş, beynəlxalq əməkdaşlığın gücləndirilməsi zəruriliyi vurğulanmışdır. Bu konsepsiyalar göstərir ki, informasiya və kibertəhlükəsizlik müasir beynəlxalq təhlükəsizlik gündəliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Tədqiqatın sonuncu – üçüncü fəsli "**Azərbaycanın beynəlxalq münasibətlərinə İKT-nin təsiri**"ni öyrənir. Bu fəslin **"Rəqəmsallaşmanın Azərbaycanın xarici siyasəti və informasiya təhlükəsizliyinə təsiri"** adlanan birinci paraqrafında isə müəyyən edilir ki, rəqəmsallaşma müasir beynəlxalq münasibətlərin əsas tendensiyalarından biri kimi Azərbaycanın xarici siyasətinə və informasiya təhlükəsizliyinə də mühüm təsir göstərir. Qlobal informasiya axınlarının sürətlənməsi, rəqəmsal diplomatiya alətlərinin genişlənməsi və kibertəhlükələrin artması Azərbaycanın xarici siyasət kursunda yeni yanaşmalar tələb etdiyi üçün bu proses bir tərəfdən ölkənin beynəlxalq əməkdaşlıq imkanlarını artırır, digər tərəfdən isə kiberhücumlar və dezinformasiya risklərini gücləndirir.

Azərbaycanın beynəlxalq İKT əməkdaşlığında atdığı addımlar diqqətəlayiqdir. Bununla yanaşı, Azərbaycan hər tərəfdən informasiya təhlükələri ilə qarşılaşır. Ermənistan, Rusiya, İran, Çin və Qərb ölkələrindən yönələn kiberhücumların intensivliyi ölkənin geosiyasi əhəmiyyətini və strateji resurslarını nəzarət altına almaq uğrunda böyük güclərin maraqlarını əks etdirir. Bu çərçivədə İKT, Azərbaycanın üzərinə yönəlmiş siyasi-psixoloji təzyiq vasitəsinə çevrilir. Lakin Azərbaycan milli maraqlarını müdafiə etmək və beynəlxalq mövqeyini gücləndirmək üçün İKT sahəsində perspektiv inkişaf strategiyası formalaşdıraraq çoxşaxəli siyasət həyata keçirir. ABŞ, Çin, Türkiyə, Cənubi Koreya, Qətər, İsrail, Macarıstan, BƏƏ

və digər ölkələrlə əməkdaşlıq, həmçinin Avropa Şurasının kibertəhlükəsizlik konvensiyasına qoşulması bu istiqamətdə atılmış mühüm addımlardandır.

Üçüncü fəslin **"Ermənistanın Azərbaycana qarşı informasiya müharibəsinin istiqamətləri"** adlı ikinci paraqrafında vurğulanır ki, Ermənistanın informasiya müharibəsində seçdiyi istiqamətlər hərtərəfli xarakter daşıyır: hərbi sahədə Azərbaycanın üstünlüyünü, döyüş ruhunu və xərclərini şübhə altına almaqla ordunun mənəvi-psixoloji durumuna zərbə vurmaq, beynəlxalq hərbi-siyasi platformalarda onun təmsilçiliyinin qarşısını almağa çalışmaq; iqtisadiyyatda daxili problemləri qabardaraq ölkənin neft-qaz ehtiyatları ilə bağlı məlumatları yalanlamaq və iqtisadi imicinə zərər yetirmək; siyasətdə institutları və diasporu hədəf alaraq separatçılığı təşviq etmək və təxribat törətmək; ekologiyada Azərbaycanı Xəzər və Cənubi Qafqaz regionunda böhran yaradan tərəf kimi təqdim etmək; elm sahəsində tarixi şəxsiyyətlərin mənşəyini saxtalaşdırmaq və toponimlərin ermənilərə aid olduğunu iddia etməklə milli kimliyi sarsıtmaq; mədəniyyətdə isə azərbaycanlıların qeyri-mədəni obrazını formalaşdırmaq və erməni nailiyyətlərini önə çəkmək; insan hüquqları və demokratiya istiqamətində isə hakimiyyəti ittiham etməklə beynəlxalq təzyiq yaratmaq. Bunun qarşısında, Azərbaycan yalnız müdafiədə qalmır, hücum mövqeyindən də çıxış edir və ermənilərdən fərqli olaraq, əsasən real faktlara söykənən məlumatlardan istifadə edir.

Paraqrafda həmçinin o da təhlil olunur ki, Ermənistan və bəzi ermənipərəst rus kanalları Azərbaycanın beynəlxalq imicinə və milli maraqlarına zərbə vurmaq məqsədilə sistemli dezinformasiya müharibəsi aparır, bu müharibə isə müxtəlif sahələri əhatə edən genişmiqyaslı kampaniyalar şəklində özünü göstərir. Tovuz döyüşləri və 44 günlük Vətən müharibəsi zamanı onlar döyüşlərin gedişatını təhrif etməklə ölkəmizi günahkar çıxarmağa, Azərbaycan Ordusunun uğurlarını kiçiltməyə, itkilərini şişirtməyə və beynəlxalq ictimaiyyətdə ölkənin hərbi üstünlüyünü şübhə altına almağa çalışmışlar. İqtisadi sahədə TAP və TANAP kimi Azərbaycanın strateji enerji layihələrini hədəfə alaraq, onların guya qeyri-sabitlik və regionda ekoloji təhlükə yaratdığını iddia etmiş, beləliklə

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolun dəyərini azaltmaq niyyətini güdmüşlər. Siyasi istiqamətdə isə Prezident İlham Əliyevin imicinə qarşı xüsusi kampaniyalar aparılmış, onun liderlik keyfiyyətlərini və beynəlxalq arenadakı nüfuzunu kölgələməyə çalışmışlar. Mədəniyyət sahəsində isə Azərbaycan mədəniyyətinə qarşı təhrifedici məlumatlar yayılmış, tarixi irs və mədəni nailiyyətlərin ermənilərə aid olduğu iddia olunmuşdur. Ümumiləşdirsək, hərbi, siyasi, iqtisadi, mədəni və strateji istiqamətləri əhatə edən bu dezinformasiya hücumları Azərbaycanın həm daxili sabitliyini, həm də beynəlxalq mövqelərini zəiflətmək üçün məqsədyönlü şəkildə həyata keçirilən informasiya müharibəsinin əsas komponentlərinə çevrilmişdir.

Dissertasiya işinin sonuncu paraqrafı İKT-nin beynəlxalq münasibətlərə təsirini "**İkinci Qarabağ müharibəsi beynəlxalq informasiya müharibəsi kontekstində**" təhlil edir. Burada müəllif qeyd edir ki, 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın informasiya hücumlarında Semyon Peqov və onun idarə etdiyi *War Gonzo* kimi təbliğat resursları dezinformativ rol oynasa da, Azərbaycan həm hərbi meydanda, həm də informasiya məkanında qətiyyətli qələbə qazanmışdır. Prezident İlham Əliyev Azərbaycanın mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmaq, dezinformasiya kampaniyalarının qarşısını almaq və arqumentlərlə çıxış etmək üçün dünyanın aparıcı KİV-lərinə geniş müsahibələr vermişdir. Media resurlarında belə bir geniş iştirak Azərbaycanın haqlı mövqeyini müdafiə etməklə yanaşı, informasiya müharibəsində də ölkənin üstünlüyünü təmin etmiş və beynəlxalq auditoriyada qələbənin legitimləşdirilməsinə mühüm töhfə vermişdir.

Tədqiqatın bu hissəsində o da vurğulanır ki, 44 günlük müharibə dövründə erməni media resursları guya suriyalı və hətta uyğur döyüşçülərin iştirak etdiyi barədə əsassız iddialar yayaraq beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışmışdır. Halbuki araşdırmalar göstərmişdir ki, yayılan fotolardakı şəxslər Qarabağda deyil, əvvəllər Suriya və İraqda öldürülmüşdülər.

Müəllif xüsusilə qeyd edir ki, 44 günlük müharibə zamanı Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin də Azərbaycanda guya Suriyadan gətirilmiş terrorçuların olması barədə

iddialar səsləndirmiş, lakin Azərbaycan DTX-nin faktların təqdim olunması tələbinə heç bir sübut göstərilməmişdir. Bu, yayılan xəbərlərin əslində yalnız KİV və sosial şəbəkələrdə dolaşan feyklər olduğunu təsdiqləmiş, həmçinin Fransadan Almaniyaya, ABŞ-dan digər Qərb ölkələrinə qədər bəzi mətbuat orqanlarında təkrarlanan bu dezinformasiyalara ən güclü cavab isə Prezident İlham Əliyevin beynəlxalq media vasitəsilə verdiyi arqumentli müsahibələr olmuşdur.

Tədqiqatın "**Nəticə**"ləri isə öz növbəsində göstərir ki, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı beynəlxalq münasibətlərin mahiyyətini köklü şəkildə dəyişdirərək onları yeni bir mərhələyə çıxarmışdır; artıq İKT yalnız ünsiyyət vasitəsi deyil, qlobal siyasət, diplomatiya və təhlükəsizlik arxitekturasının əsas sütunlarından biri kimi çıxış edir.

Bu baxımdan, qlobal informasiya cəmiyyəti konsepsiyası İKT-nin siyasi, iqtisadi, sosial və mədəni təsirlərini izah edən nəzəri baza kimi həm innovasiya və iqtisadi artım imkanları yaradır, həm də rəqəmsal uçurum və kibertəhlükələr kimi risklər formalaşdırır. İKT beynəlxalq münasibətlərdə ünsiyyətin sürətlənməsini, bazarların genişlənməsini, təhsilin əlçatanlığını və mədəni mübadiləni təşviq etsə də, dezinformasiya və rəqəmsal bərabərsizlik kimi amillərlə dövlətlərarası etimadı zəiflədir. İnformasiya təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilmiş və kibercasusluqla kiberhücumların qarşısını almaq üçün texniki, hüquqi və institusional tədbirlərin tətbiqi zəruri olmuşdur. İnformasiya müharibələri müasir təhlükəsizlik müstəvisində əsas alətə çevrilmiş, dezinformasiya və rəqəmsal təbliğat vasitəsilə dövlətlərin siyasi və geosiyasi mövqelərinə təsir göstərmək imkanı əldə etmişdir. İKT-nin diplomatiyaya təsirləri nəticəsində ənənəvi diplomatik çərçivələr dəyişmiş, dövlətlər daha çevik və qlobal miqyaslı ünsiyyət imkanlarına sahib olaraq rəqəmsal diplomatiyanı yeni paradiqma kimi formalaşdırmışdır.

Azərbaycan rəqəmsallaşmanın sürətlənməsi fonunda kiberhücumlar və casusluq fəaliyyətləri ilə üzləşmiş, kritik infrastrukturun hədəfə alınması milli təhlükəsizlik və iqtisadi sabitlik üçün risk yaratdığına görə hüquqi və institusional çərçivələri

gücləndirmiş və Ermənistanın dezinformasiya, kiberhücum və sosial media manipulyasiyasına qarşı mübarizə aparmışdır. Rəqəmsallaşma Azərbaycanın beynəlxalq mövqelərini gücləndirərək xarici siyasətdə daha operativ fəaliyyət imkanı vermiş, eyni zamanda informasiya təhlükəsizliyi risklərini artıraraq rəqəmsal-virtual məkanda milli maraqların qorunmasını xüsusi zərurət halına gətirmişdir. 44 günlük Vətən müharibəsi sübut etmişdir ki, hibrid münaqişələrdə informasiya üstünlüyü hərbi, diplomatik və psixoloji nəticələrə birbaşa təsir göstərir; Azərbaycan informasiya müharibəsində üstünlük qazanmış, Ermənistan isə dezinformasiyalar vasitəsilə öz mövqeyini möhkəmləndirməyə çalışmışdır.

Nəticələr əsasında müəllif tövsiyə edir ki, ölkəmizdə kibertəhlükəsizlik kompleks proqramlarla gücləndirilməli, mütəxəssis hazırlığına önəm verilməli, beynəlxalq media platformaları yaradılmalı və türkdilli ölkələrlə ortaq strategiya işlənməlidir.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. Beynəlxalq informasiya müharibələrində İKT amili //– Bakı: Elmi əsərlər. AMEA Fəlsəfə İnstitutunun beynəlxalq elmi-nəzəri jurnalı, – 2019. № 1(32), – s. 97-103.
2. Azərbaycana qarşı aparılan informasiya müharibəsinin əsas beynəlxalq aspektləri // “Heydər Əliyev ideyaları və müasir Azərbaycan” mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. – Bakı: Aspoliqraf, – 2019, – s. 139-156.
3. İnformasiya-Kommunikasiya Texnologiyalarinin beynəlxalq münasibətlər sisteminə təsiri // – Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, – 2019. № 02(66), – s. 271-280.
4. International aspects of problems of security in an information society // The 5th International scientific and practical conference “Dynamics of the development of world science” (January 22-24, 2020). Perfect Publishing, Vancouver, Canada, – 2020, – p. 210-214.
5. Qərbin Azərbaycana qarşı informasiya müharibəsi // – Bakı: Geostrategiya jurnalı, – 2020. № 03/04 (57/58), – s. 14 - 19.

6. The Media and Social Networks as factors in the 'Colour Revolutions' // Technium social sciences journal. – Constanta: Technium Press, – 2020. – vol. 11, p. 364-370. URL: https://techniumscience.com/index.php/socialsciences/article/view/1458/601
7. Qlobal informasiya cəmiyyəti konsepsiyalarının nəzəri əsasları // "Dövlət idarəçiliyində islahatların yeni mərhələsi" mövzusunda doktorant və dissertantların onlayn elmi-praktiki konfransının materialları. – Bakı: Aspoliqraf, – 2020, – s. 86-101.
8. İkinci Qarabağ savaşında informasiya müharibəsi // – Bakı: Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, – 2020. № 4(72), – s. 233-244.
9. Ermənistan – Azərbaycan münaqişəsi beynəlxalq informasiya müharibəsi kontekstində // "Heydər Əliyev və Azərbaycan Respublikasının müasir innovativ inkişafı" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. – Bakı: Aspoliqraf, – 2021, – s. 65-76.
10. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik amili kimi // – Bakı: Geostrategiya jurnalı, – 2024. № 2(80), – s. 15-20.
11. Cyberterrorism and National Security // International and National Security: Theoretical and Applied Aspects. Theses of the IX International Scientific-Practical Conference. In two parts. – Part II. – Dnipro: Dnipro State University of Internal Affairs – March 21, – 2025, – p. 403- 405.
12. Virtual Reality and International Diplomacy // – Riga: Baltic Journal of Legal and Social Sciences, – 2025. – № 2, – p. 205-212. URL: http://baltijapublishing.lv/ index.php/ bjlss/issue/view/177/368

Dissertasiyanın müdafiəsi "30" oktyabr 2025-ci il saat 13:30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD.2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "29" sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.09.2025
Kağızın formatı: A5
Həcmi: 43546
Tiraj: 100